# NİZAMİNİN İNSAN FƏLSƏFƏSİNİN ƏSASLARI

*(“Sirlər xəzinəsi” haqqında)*



Məmməd Qocayev

Y.Bertels qeyd edir ki, Nizaminin “Sirlər xəzinəsi” “fars dilində yazılmış ən çətin əsərlərdən biridir”.

Çox güman ki, bu çətinlik əsərin fəlsəfi-etik mündəricə daşıması ilə bağlıdır. Bu çətinlik bir də onunla izah oluna bilər ki, bu əsərdə Nizami hələ özünün tam formalaşmış və bitkin insan konsepsiyasını yaratmamışdı və bu yolda gərgin axtarışlar aparırdı. “Sirlər xəzinəsi” məhz bu axtarışların ifadəsi və ilk mərhələsi kimi başa düşülməlidir. M.Ə.Rəsulzadə yazırdı: “Sirlər xəzinəsi”nin yazılmasında əsl məqsəd şairlik deyil, filosof və şeyx olan Nizaminin əxlaqi fikirlərini daxildən gələn bir istəklə oxuculara təlqin etməkdir”. Bir daha Nizami yaradıcılığının böyük tədqiqatçısı Y.Bertelsin fikirlərinə qayıdaq. O, “Sirlər xəzinəsi”nin əsas qayəsini müsəlman aləmində geniş yayılmış didaktikada və nəsihətdə görür. Alimin sözlərində böyük həqiqət var. Lakin bir şeyi də qeyd etmək yerinə düşərdi ki, Nizami Orta əsr şərq ədəbiyyatı ənənələrini davam etdirməklə yanaşı, həm də renessans təfəkkürlü bir novator şair kimi insanın fəlsəfi və ruhi mahiyyətinin dərk olunması məsələsini əsas vəzifə kimi qarşıya qoyur. Nizami insanı öyrətməklə yanaşı, həm də onu öyrənməyə səy göstərir. İnsanın mahiyyətini dərk etmək, onun sirlərinə vaqif olmaq həm də ona



görə vacibdir ki, bu yol ilahi sirlərin açılmasına və dərk olunmasına xidmət edir.

*Dərvişlik və şahlığın mayası ondadır*
*Və ilahinin sirlər xəzinəsi də ondadır.*

“Ondadır” deyəndə Nizami öz əsərini, yəni “Sirlər xəzinəsi”ni nəzərdə tuturdu.

İnsan və onun mahiyyəti haqqında söz açmazdan əvvəl şair Allahın, peyğəmbərin, şahın tərifini verir. Bununla da insanın ali və dünyəvi dəyərlər silsiləsindəki yerini təyin etmək istəyir. Ənənəvi bir forma olan bu giriş çox vacib metodoloji məzmun daşıyır. İnsanın mahiyyətini dərk etmək üçün əvvəlcə ilahi hikməti dərk etmək lazımdır. Yalnız bu mütləq dəyər fonunda insanın kim olduğunu düzgün başa düşmək olar. İlahi hikmətin dərk olunması daim çətin məsələlərdən biri, bəlkə də ən çətini olmuşdur. Bu məsələ Nizamini də çox düşündürmüşdür. “Sirlər xəzinəsi”ndə şair Allahı tanımaq yollarını axtarır və əvvəlcə sözdən başlayır, söz vasitəsilə ilahi varlığın mahiyyətini açmağın mümkünsüzlüyünü söyləyir.

*Əli uzun olan sözün ayağının başını*
*Onun (Allahın) dərgahındakı daş yardı (19).*

Deməli, söz ilahi mahiyyəti dərk etməkdə acizdir. Sonra şair vəhmə müraciət edib qeyd edir ki, o da ilahi hikmətə çata bilmir.

*Ayağı yalın vəhm çox yollar dolaşdı,*
*Amma onun qapısından əliboş qayıtdı (19).*

Bu dəfə də əqlin imkanları araşdırılır və növbəti axtarış da uğursuzluqla qurtarır.

*Əql ortaya çıxıb (dedi): “Mən vəhmi çağırıb*
*Ədəbsizliyinə görə onu tənbeh etdim (19).*

Əql dərk edir ki, Allahın yaratdıqlarının hamısı öz xaliqini axtarır, lakin onu görmək səadəti heç kəsə nəsib olmayıb. Ruhun məskəni olan ürək də bu səadətə çata bilməyib.

*Cana (ruha) qohumluğu çatıb və paklıq edən ürək də*
*Onun (dərgahının) qapısında torpaqdır (19).*

Bir sözlə, Allah heç cür dərk oluna biləcək mahiyyət və açıla biləcək sirr deyildir. Bütün aləmi yaradan, bir ovuc zəif torpağı qüdrətli bit varlığa çevirən odur. O Xaliqdir. Əbədidir. Dəyişməzdir. Tək o deyə bilər “həqq mənəm”, tək o pərəstişə layiqdir. Allahın qulu olmaq insanın ağalığı və böyüklüyüdür.

Nizami dünyasında Allahdan uca, ondan ali heç nə yoxdur. Ona görə də o, dünyanın doqquzuncu qatında bərqərar olmuşdur. Həm məkan, həm də məna baxımından Xaliq ən uca zirvədə dayanmışdır. Məkan yüksəkliyi burada mənəvi yüksəkliyin ifadəsidir. Nizami dünyasında ruhun məqamı həmişə uca olmuşdur. Bu baxımdan, yəni ruhla vücudun nisbətini nəzərə alaraq, Nizami Məhəmməd peyğəmbəri ilahi məqamdan aşağıda olan ən uca zirvələrdən biri kimi mənalandırılır. Göyün doqquzuncu qatına, yəni Allahın dərgahına yüksəlmək də yalnız ona nəsib olmuşdur. Allahın şamını o, öz ürəyində yandırmışdır.

*Öz cisminin qəfəsilə bu (dünya) tələsindən*
*Onun ürək quşu (ruhu) dinclik məkanına uçdu (27).*

Allahın dərgahına çatanda o, öz “cisim libasını çıxardı”, “başını təbiətin yaxasından çıxardı”(30), yəni onun ruhu vücuddan azad oldu. Öz sonsuz paklığı sayəsində o, Allahın hüzuruna yetişdi. Merac adlanan bu səfərə peyğəmbər eşqin cazibəsi ilə yollandı və bir göz qırpımında bu səfəri başa vurub geri qayıtdı. Peyğəmbərin meracı səhnəsi yüksək bədii boyalarla və dərin fəlsəfi vüsətlə təsvir olunmuşdur. Allahla görüş peyğəmbərin bir ölçü sistemindən başqa bir ölçü sisteminə adlaması kimi, yəni zaman və məkan ölçülü maddi aləmdən, zamansız və məkansız, əbədi və sonsuz ruh aləminə keçid kimi təsvir olunur. Fərdi ruhun maddi aləmi dəf etməsi və yenidən özünə qayıtması bir anda baş verir. Burada məkandakı hərəkət kimi təsvir olunan merac, əslində, peyğəmbərin bir daxili vəziyyətdən başqa vəziyyətə - vücudla ruhun vəhdəti vəziyyətindən ruhun vücuddan ayrılması vəziyyətinə keçməsidir. Peyğəmbər öz “cisim libasını çıxardı”, “başını təbiətin yaxasından çıxardı” deyəndə Nizami ruhun vücuddan və ümumən maddi aləmdən azad olmasını nəzərdə tutur. Maddi aləm burada ruhun libası, onun qəfəsi kimi səciyyələndirilir. Peyğəmbərin yerə qayıtması isə ruhun yenidən dünyaya və vücuda qayıtması deməkdir. Ona görə də peyğəmbərin ilahi dərgaha çataraq, yenidən yerə dönməsi bir göz qırpımında baş verir. Peyğəmbər Allahı da öz cismani gözləri ilə deyil, “idrak gözlərilə” görür.

*Məhəmməd o varlıq çeşməsini başqa gözlə deyil,*
*Yalnız idrak gözlərilə gördü (31).*

Peyğəmbərin meracını Nizami sırf ruhi yüksəliş kimi təsvir edir. Şair özü də belə bir görüşə, yəni ruh aləminə səfərə can atır. Peyğəmbər Allahın dərgahına yüksəldisə, şair qəlbin dərgahına çatmaq istəyir. Bu səfərdə o, eşqi özü üçün bələdçi götürür və qəlbin dərgahına çatır. Hər iki halda insanın ruhi aləmə can atmasından söhbət gedir: peyğəmbər mütləq ruha, şair isə qəlb dünyasına çatır. İnsan amallarının ən alisi ruhi kamilliyə can atmaq, insan səadətinin ən gözəli və əbədisi ruhi kamillik nəsibidir.

Adi insanlardan söhbət açanda da Nizami ruhi kamilliyi bir məqsəd, bir ömür məramı kimi qarşıya qoyur. Nizami təlimində və poetikasında ideal insan məhz ruhi kamilliyə çatmış insan deməkdir. Ruhun mütləq dərəcəsi Allaha, adi dərəcəsi isə kamil insana nəsib olur. Allah ilə insan arasındakı ruhi mərtəbədə isə peyğəmbər dayanmışdır. O, insanların ən alisi və ən kamilidir. Nizaminin ideal insan axtarışları məhz peyğəmbər obrazında öz məqsədinə çatır.

“Gecənin vəsfi və qəlbi tanımaq haqqında” bəhsində Nizami özünün qəlb dünyasına meracından, zamansız və məkansız ruh aləminə çatmasından söhbət açır. Məkanda və zamanda hərəkət kimi təsvir olunan bu səfər də əslində insanın özünəqayıdışı, öz ruhi mahiyyətinə tapınması, öz qəlb aləmini kəşf etməsidir. Qəlb dünyasına səfər eşqin bələdçiliyi ilə baş verir. Həm də bu səfər gecə, insanın öz hissiyyat elçilərinin, yəni göz və qulağın məlumatlarından azad olduğu bir vaxtda baş verir. Gecə düşür və qeybdən bir səs gəlir:

*Nə üçün öz pak atəşinə su səpirsən,*
*Yel kimi yedək atı sənin torpağına nə lazım?*
*Qızdırma gətirən torpağı tabuta bağışla,*
*Parlayan odu isə yaquta bağışla.*
*Maviliyi xoşa gələn bu küpün əyri altında*
*Qəlb naqilini de ki, onun ahəngi xoşdur.*
*Hissiyyat kölgəsindən uzaq ol,*
*Sənin yolunu yalnız qəlbin bilir, qəlbi tanı.*
*Cismdən azad olub ərşdə uçanlar*
*Cəbrayilin şahpərini öz qəlblərinə bağlamışlar (58).*
*Göz, qulaq təbiətdə artıq (şeylərdir),*
*Onlar zahiri pərdənin işçiləridir (59).*

“Zahiri pərdə” dedikdə şair vücudu və maddi aləmi nəzərdə tutur. Qulaq və göz maddi aləm haqqında bəsit məlumatlar verir, üzdə olanı, görünəni və eşidiləni qavrayır. Ruh aləminə nüfuz etmək üçünsə qəlbin səsini dinləmək gərəkdir. Qəlb həm də ruhi mahiyyətdən xəbər verir.

*Ərşin şahı cahanı yaradarkən*
*Həm surət, həm də can məmləkətini yaratdı.*
*Adına sultanlıq xütbəsi oxunan qəlb*
*Cismani və ruhani bir əkdəşdir (60).*

Cismin və ruhun vəhdəti olan əkdəş (metis), yəni qəlb vücudun “yolkəsənlərindən” azad olur, eşqin köməyilə ruhi dərgaha çatır, öz maddi varlığını dəf edərək ruhi mahiyyətinə adlayır. Burada insan bütöv bir dünya, yeddi xəlifəli bir məmləkət kimi təsvir olunur. Bu dünya “fələklər məmləkətindən böyük bir məmləkətdir” (62). İnsan kosmik genişliyə malik daxili bir sonsuzluq kimi təsvir olunur. Nəfəsabad adlanan bu məmləkətin yeddi xəlifəsi var. R.Əliyev onları belə şərh edir: Nəfəsabad - ağciyər, Günorta şahı - qəlb, Qırmızı atlı - ürək, Ləl qəbalı zəfər əsgəri - qaraciyər, Açıqlı bir cavan - öd kisəsi, Qara qul - dalaq , Kəməndatan - mədə, Misbədən pəhləvan - böyrək. Nədənsə səkkiz alınır. Çox güman ki, Nəfəsabad deyəndə Nizami bütövlükdə insanı nəzərdə tutur. Nəfəsabad adlı məmləkəti seyr edən şair qəlbin səsini eşidir: “Ey dilbilməz, bu yuvadan keç, quşu axtar”, “Mən səninləyəm, səndən kənar deyiləm” (62). Söhbət insanın öz daxilində olan ruhdan gedir. Şair qəlbin səsinə qulaq asır, ondan riyazəti qəbul edir, ruhi kamilləşmə yoluna qədəm qoyur.

Peyğəmbərin tərifindən sonra şair “İslam padşahı məlik Fəxrəddin Bəhram şah İbn Davuda sitayiş” fəslini başlayır. Allah və peyğəmbərdən sonra şaha müraciət olunur, onun şan-şöhrəti vəsf olunur.

Adətən, belə hesab edirlər ki, şahların tərifi məddahlıqdır və bu bir ənənə kimi ədəbiyyatda qəbul olunmuş və heç də həmişə ürəkdən gələn sözlər olmamasıdır. Yəqin ki burda bir həqiqət var. Lakin bununla yanaşı şahların tərifində bir şair ilhamı da duyulmaqdadır. Şeir naqisliyi inkar etməyi sevdiyi kimi, möhtəşəmliyi vəsf etməyi də sevir. İn-




san uca saydığı hər bir şeydə ilahi iradəni və ilahi səxavəti hiss edir. Şahlıq da insanlar tərəfindən deyil, məhz Tanrı tərəfindən verilmiş səlahiyyət kimi başa düşülməlidir. Ona görə də Nizami kimi bir şairin şahı tərifləməsi adi məddahlıq və ya yaltaqlıq ola bilməz. Şaha adi bir şəxs kimi baxmaq olmaz. O, həm milləti, həm də ilahi iradəni təmsil edir. Şaha itaət, onun qarşısında yeröpmə mərasimi məhz ilahi iradəyə səcdə kimi səciyyələnir. Nizami Bəhram şaha müraciətən yazanda ki,

*Bir neçə fələklə süfrə ətrafında oturarkən,*
*Mənə də bir neçə sümük at.*
*Çünki sənin itin olmaqdan dəm vururam,*
*Sənə qul olmağım üçün haray salmışam (48),*

bu sözlərin Nizamiyə mənsub olduğuna şübhəylə yanaşırlar. R.Əliyev yazır: “Bu beytlərin məzmunu Nizaminin əxlaqına yabancıdır və onun üslubuna heç uyğun deyil. Şübhəsiz, həmin beyt sonralar katiblər tərəfindən artırılmışdır” (201). Bəs onda katiblərin məqsədi nə olmuşdur?

Sovet elmi bizi o qədər şahlara nifrət ruhunda tərbiyə etmişdir ki, biz bütün söz ustalarından şahların ünvanına yalnız tənqid gözləmişik. Nizami isə Ərzincan hakimini tərifləyir, hətta özünü onun “qulu” və “iti” adlandırır. Bəlkə Bəhram şah İbn Davud ideal şah idi və ona qul olmağa dəyərdi? Yəqin ki, bu belə də deyil. Bəs onda Nizaminin şah qarşısında bu qədər mütiliyini nəylə izah etmək olar? Bu sualın cavabını Nizaminin və daha geniş mənada dövrün dünyagörüşündə axtarmaq lazımdır. Əvvəlcə Allahı, sonra peyğəmbəri və nəhayət, şahı tərifləyən şair bu üçlüyü adi insanlar sırasından çıxarıb ilahi mərtəbəyə qaldırır. Allah dünyanın xaliqi, peyğəmbər onun elçisi, şah isə Tanrının yerdəki kölgəsidir. Belə olan halda şairin şaha itaəti təkcə rəiyyətin hökmdara itaəti kimi deyil, həm də insanın ilahi iradəyə hörməti kimi yozulmalıdır.

Şahın tərifindən sonra Nizami sözün və şeirin tərifinə başlayır. Söz adi insanlara verilən ilahi sərvətdir. İnsan söz vasitəsilə Allaha qovuşur. Nizami sözü adi ünsiyyət vasitəsi kimi deyil, insan ruhunun ifadəsi kimi mənalandırır. Sözsüz insan ruhsuz bədəndən başqa bir şey deyildir. Ruh ilahi mahiyyət daşıdığından söz də onun ifadəsi kimi ilahi vergidir.

*Eşq lüğətində söz bizim canımızdır,*
*Biz sözük, bu gövdə isə bizim xarabaxanamızdır (50).*

Allahın kəlamı da söz vasitəsilə insanlara çatdırılır. Söz vəzndə bütün dəyərlərdən ağırdır.

*Təbiət mülkünü sözlə fəth ediblər,*
*Şəriət möhrünü sözlə vurublar.*
*Sözdən yuxarıda oturan yoxdur,*
*Bu dünyanın varı-dövləti yalnız sözdür (51).*

Söz insanlara mənsub olan ilahi hikmətdir. Onu Tanrı insan ürəyinə bəxş etmişdir. Ürək ruhun, sözün məskəni və Allahla insan arasında əlaqə yaradan vasitəçidir. Ürəksiz insan söz qədri bilməz. Sözün qədrini ucaldan ürəkdir. Ürəkdən başqa hər nə varsa sözdən bixəbərdir. Qafiyəli söz isə daha qiymətlidir. O, cilalanmış ləldir. “Söz qoşanlar”, yəni şairlər, “ərşin bülbülləridir”, ilahi hikməti söz vasitəsilə insanlara çatdıranlardır. Şairlik ilahi vergidir. Şair ruhi aləmlə real dünya arasında vasitəçidir. Şeir insanın ruha tapınması, ruhi aləmə qovuşmasıdır. Şeir vasitəsilə insan Allaha yaxınlaşır. Lakin ona çatmaq üçün dinin ətəyindən yapışmaq lazımdır. Ona görə də Nizami şairləri peyğəmbərlərdən sonra Allaha ən yaxın olan bəndələr hesab edir.

*(Davamı səhifə 17-də)*

# NİZAMİNİN İNSAN FƏLSƏFƏSİNİN ƏSASLARI

## ("Sirlər xəzinəsi" haqqında)

(Əvvəli səhifə 16-da)

*Söz qoşmaq sirrinin pərdəsi*
*Peyğəmbərlik pərdəsinin bir kölgəsidir.*
*Kibriyalar (möhtəşəmlər) öndə və arxada cərgə quranda*
*Öndə peyğəmbərlər, sonra isə şairlər gəldilər.*
*Hər iki cərgə bir Dostun (Allahın) mərhəmidir.*
*Onlar hər ikisi məğz, qalanlar hamısı qabıqdırlar (51).*

Beləliklə, "Sirlər xəzinəsi"ndə dəyərlər və hikmətlər ardıcıllığı belədir: birinci yerdə və ən yüksəkdə Allah durur və şair əvvəlcə Allaha sitayiş edir; sonra peyğəmbər gəlir və şair Məhəmməd peyğəmbərin tərifini verir; üçüncü yerdə şah durur və Nizami Bəhram şaha öz sitayişini izhar edir; sonra şair haqqında və sözün hikməti haqqında fikirlər söylənilir; nəhayət, adi insan haqqında və insanın ruhi mahiyyəti haqqında söhbət gedir, ruhun məskəni olan qəlbin tərbiyəsi tərənnüm olunur. Bununla da əsərin giriş hissəsi bitir. Əsas hissədə isə insan mövzusuna müraciət olunur və iyirmi məqalənin hamısı bu mövzuya həsr olunur.

"Sirlər xəzinəsi"nin birinci məqaləsində ilk insanın, yəni Adəmin yaradılmasından və onun aqibətindən söhbət açılır. Deməli, yalnız birinci məqalədən etibarən əsas mövzu insan mövzusu olur. Ona qədər isə poemanın giriş hissəsində əsas mövzu Allah və ilahi hikmətlər mövzusu idi. İlahi hikmətlərin vəsfindən sonra şair insani hikmətlərin təsvirinə müraciət edir.

Poemada vahid süjet xətti, vahid hadisə və baş qəhrəman yoxdur. Əsər ayrı-ayrı mövzu və hadisələrdən bəhs edən iyirmi məqalədən ibarətdir. İlk baxışda elə təəssürat yaranır ki, əsərdə ayrı-ayrı hissələri bir-birilə birləşdirən ana xətt yoxdur. Bu barədə M.Ə.Rəsulzadə qeyd edir ki, "Sirlər xəzinəsi"ndə şair "nə bir aşiqin macərasını, nə də bir hökmdarın dünyanı fəth etməsini təsvir edir. Bu nə bir hekayə, nə təmsil, nə də ki dastan deyildir. Bu baxımdan onun "Beşlik"dəki qardaşlarına oxşarlığı yoxdur". Yalnız fikir yekdilliyi baxımından ona "müstəqil bir kitab demək olar - din yayan müqəddəs bir kitab". Burada ayrı-ayrı hadisələri birləşdirən ana xətti M.Ə.Rəsulzadə dində görür. Bizcə, din və dini mövzu burada əsərin ana xətti kimi deyil, onun metodoloji əsası kimi izah olunmalıdır. Bütün əsər boyu keçən və onun ana xəttini təşkil edən mövzu isə insan mövzusudur. Bu mövzunun müxtəlif tərəfləri ayrı-ayrı məqalələrdə öz bədii-estetik şərhini tapmışdır. İnsan, onun dünyaya gəlməsi və ölümü, onun ilahi və təbii mahiyyəti, həyata və ölümə, Allaha və özünə münasibəti, ruhi kamilləşmənin yolları, ali xəyallar, dünyanın vəfasızlığı və həyatın faniliyi, mənəvi xüsusiyyətlər - insaf, ədalət, təmənna, paxıllıq, sədaqət, xəyanət və s. məsələlər geniş təhlil olunur.

"Sirlər xəzinəsi"ndə Nizami bitkin insan konsepsiyası yarada bilməmişdir. O səbəbdən də burada vahid baş qəhrəman obrazı yoxdur. İnsan haqqında rəngarəng və məzmunlu bədii-fəlsəfi miniatürlər vardır. Hər halda insan problemi bu əsərin ana xəttini təşkil edir. Bu baxımdan diqqəti çəkən bir haldır ki, birinci məqalə insanın yaranması və Adəmin aqibəti haqqındadır. Adəmin timsalında Nizami insan üçün bütün xarekterik vəziyyətləri göstərmişdir. Sonrakı məqalələrdə isə Adəm övladlarının yer üzündəki keşməkeşləri təsvir olunur.

1. İlk insanın yaranmasını Nizami ilahi eşqin hikməti ilə izah edir. Eşq fəlsəfəsi xilqət fəlsəfəsi ilə bağlı bir mövzu kimi təqdim olunur. Nizaminin fikrincə, varlığın yoxdan xəlq edilməsi ilahi eşqin sayəsində və onun nəticəsi kimi baş verir. Neoplatonizm fəlsəfəsində olduğu kimi Renessans poetikasında da mövcudiyyət ilahi ruhun reallaşmış ifadəsi kimi təsvir olunur. Varlıq ruhdan, daha dəqiq deyilsə, eşqdən yaranır.

*O zaman ki, eşqə pərəstiş etmirdilər*
*Yoxluqda varlığın sədası da yox idi (78).*

İlahi eşq "yoxluqda varlığın sədası" kimi yarandı. Deməli, varlıq eşq deyilən ilahi hikmətin nəticəsidir. İnsana gəlincə, o, ilahi ruhla maddi varlığın vəhdəti kimi yaranmışdır. Ona görə də onun cövhəri "həm bulaşıq, həm də təmizdir" (79). Təmizdir ona görə ki, o, Allahın "bir parça işığıdır" (79), bulaşıqdır ona görə ki, Allah "onu torpaqdan yoğurdu" (79). İnsanda ruhi əzəmətlə maddi naqislik birləşmişdir. Allahın "bakirə qüdrəti onun işində təzahür edib" (79). İnsan öz ilahi mahiyyətini Xaliqi sevməklə təsdiq edə bilər. Özünüsevərlik isə insanı ilahi dəyərdən məhrum edir və o, bir ovuc torpağa çevrilir. İnsan daim "xəcalət çəkə-çəkə" nəfəs almalıdır ki, Allah da ona "öz mərhəmətini və fəzlini" göstərsin. Nizaminin insan fəlsəfəsinə görə, Allahın sevimli xilqəti daim səcdə və kamilləşmə yolunda bulunmalıdır.

İnsanın əzəli xilqətində onun mənəvi dəyəri, mahiyyəti və davranışı əvvəlcədən təyin edilmişdir. Bu qayda pozulanda insana verilən imtiyazlar və səlahiyyətlər onun əlindən alınır, necə ki, Adəmin əlindən onun ölməzliyi və cənnətməkanlığı alındı. Adəmin aqibəti hər bir insan üçün ibrət dərsi olmalıdır. Haqqın yolunda bulunmağın şərtlərini Nizami bir daha insanların yadına salır. Cənnətdə Adəmə zəhmətsiz bəxş edilmiş nemətlərin hamısı bu dünyada var və onları insan zəhmət və əziyyət bahasına əldə etməlidir.

*Cənnətin xəzinədarı ona nə vermişdisə*
*Hamısını bu altı qapılı doqquz hücrəyə qoydu.*



*Həmin mayadan indi ye, onun gəliri sənindir.*
*Əkmək ondan, biçmək isə səndəndir (82).*

İnsanın yer üzündə özünə cənnət yaratmaq imkanı var. O, əbədi olaraq itirilməyib. Cənnətə qayıtmağın haqqı insanın yer üzündə çəkdiyi və çəkəcəyi zəhmətdir. İnsan öz ötəri həyatı ilə əbədiyyət qazanmağa qadirdir.

"Ümidsiz padşahın bağışlanmasının dastan"ında şair bu fikri təkrarən təlqin edir ki, insan həmişə Allahın ədlinə və rəhminə ümid etməlidir. Adil bir insan yuxuda çoxdan ölmüş zalımı görüb ondan soruşur ki, Allah ona neylədi? Zalım söyləyir ki, o dünyada heç kim ona rəhm eləmədi. Onda o, Allaha üz tutub ona yalvardı, ondan kömək dilədi. O dada çatan isə zalımın günahlarını bağışladı. Dünyada günahsız yaşamaq çətindir. İnsan günahlı dünyadan günahı bağışlayan Allaha üz tutur. İnsan dünyayla Allah arasında qalıb. O, dünyadan qurtarıb Allaha qovuşmağa can atır. Beləliklə, insan öz yüksək adını və nəsibini saxlamaq üçün hansı məziyyətlərə malik olmalı və hansı qüsurlardan azad olmalıdır? Bu sualların cavabları sonrakı məqalələrdə açıqlanır.

2. "Ədalət və insaf haqqında".

*Sitəmlə cahanı tutmaq olmaz,*
*Ölkəni (məmləkəti) yalnız ədalətlə almaq olar (89).*

"Ədalətli Nuşirəvan haqqında rəvayət" bir daha bu fikri təsdiqləyir;

3. "Dünyanın qəzaları haqqında". Qəzav- qədər insanı "gah cahanların şahı eyləyir", "gah da guzəgərlər üçün gilə döndərir" (94). Belə bir dünyayla necə rəftar etməli?

*Süleyman mülkünü axtarma ki, o haradadır,*
*Mülk elə həmin mülküdür, bəs Süleyman haradadır? (83).*

"Süleyman və qoca əkinçinin hekayəsi"ndə ağıl dəryası olan, dünyanın altını da, üstünü də bilən Süleyman peyğəmbər adi bir əkinçinin dəlilləri qarşısında təslim olur. Çünki o, öz ağlına və iradəsinə güvənirsə, qoca əkinçi Allahın kəmərinə arxalanır.

4. "Rəiyyətə hüsni-rəğbət haqqında". Satirik səciyyəli bu məqalədə Nizami insanın qüsurlarından söz açır. Onlardan ən böyüyü ədalətsizlikdir. "Heç bir hünər ədalətdən gözəl deyildir" (99). "Qarı və Sultan Səncərin hekayəsi"ndə sahibi-zaman şahla gücsüz və kimsəsiz qarı üzləşdirilir və qarı şaha üstün gəlir, çünki haqq onun tərəfindədir.

5. "Qocalıq haqqında". Qocalıq labüddürsə, onda cavanlıqla öyünmək mənasızdır. Qocalıq cavanlığın ötəriliyini təsdiq etməklə göstərir ki, həyat həvəsləri və nəşələri mənəvi güzəştlərə dəyməz. "Kərpiçkəsən qocanın hekayəsi" bu fikri bir daha təsdiq edir.

6. "Mövcudata etibar haqqında". Mövcudatdan xilas olmağın yolu ruha tapınmaqdır. Bədənə yox, cana və onun məskəni olan ürəyə qulaq asmaq gərəkdir.

*Bədən dediyin tozlanıb dağılan bit ovuc torpaqdır,*
*Yalnız qəlb, yenə də qəlb, çünki söz qəlbdədir (109).*

Bu fikri şair "Ovçu, it və tülkünün hekayəsi" ilə tamamlayır.

7. "İnsanın başqa heyvanlardan üstünlüyü haqqında". Ruha xidmət insanı həvəs əsiri olan otyeyəndən fərqləndirən başlıca xüsusiyyətdir. Ruha xidmət insanlıq şərəfinin dayağıdır.

*Həva və həvəsdən baş qaçırmaq sərvərlik əlamətidir,*
*Həva və həvəsi tərk etmək peyğəmbərlərin qüdrətidir (116).*

"Firudin və ahunun dastanı"nda ova çıxmış şah ahunun gözəlliyinə valeh olub onu ovlaya bilmir, onun oxu hədəfə dəymir. Gözəlliyi sevmək, gözəlliyə xidmət insanlığın ümdə sifətlərindən biridir.

8. "Yaranış haqqında". Allah dünyanı gözəl yaratdı. İnsan onu eybəcər hala saldı. Dünya saf ilahi nurdan yaranmış bir güzgüdür. Lakin o, "Sənin soyuq nəfəsindən xələl tapdı" (120).

*Sənin tacın əfsus ki, başından yaxşıdır.*
*Xalta itdən, torba isə uzunqulaqdan yaxşıdır (120).*

Bu məqaləni Nizaminin insana yazdığı həcv də adlandırmaq olar. Şair insanı gah göylərə qaldırır, gah da yerə çırpır. İlahi xilqət kimi insan möhtəşəmdir, təbii varlıq kimi o qüsurludur.

9. "Ali xəyallar və yüksək niyyətlər haqqında". Bu məqaləni insan haqqında mədhiyyə adlandırmaq olar. İnsan torpaqdan yaranmış olsa da, o, ali varlıqdır, çünki aqibət haqqında düşünməyə qadirdir. O, ömür yolunu düşünə-düşünə keçir.

*Zamandan kam almaq candan xoş olsa da,*
*Aqibət haqqında düşünmək ondan da xoşdur.*
*Ürəkdən xəbərimiz olduğu üçün biz*
*Torpaq mədənindən çıxmağımıza baxmayaraq gövhərik (124).*

İlahi ruhla torpağın vəhdətindən ibarət olan insan yerlə göy arasında tərəddüd edir, nə göydə, nə də yerdə qərar tuta bilir. Nizami yerə enmiş göylər sakini olan insanı yenidən göylərə qaldırmaq yollarını arayır.

"Tövbəsini pozan zahidin hekayəsi"ndə məhz belə bir alçalış-yüksəliş təsvir olunur. Məscid əhli meyxanəyə düşür. Həvəs imana üstün gəlir. Alçalmış insan öz aqibətini qəzavu- qədərdən görür. Lakin şairin fikrincə isə insan özünə haqq qazandırmaq əvəzinə "üzr qapısını" döysə yaxşıdır.

10. "Dünyanın axırı haqqında". Dünya, o cümlədən insanlar da, daim hərəkətdədir. Həyat adlanan bu əbədi vurnuxma ölümlə müqayisədə çox mənasız görünür. Sanki "Yer dəli olmağa məhkum olub" (129). Sanki dünya insana qarşı üsyan edir.

*Ulduz və fələklər xəcalət çəkirdilər ki,*
*Bir ovuc torpağa nə qədər pərəstiş etmək olar? (129).*

Şair insanı göylərə səslərkən fələklərin məqamını yox, Allahın dərgahını nəzərdə tutur. Yerdə sürünmək və vurnuxmaq bəsdir. Bu dünyanın ad-sanı da, mənsəbi, rəyasəti də, var-dövləti də - hamısı qüsurludur. Hər dünya dəyərinin məğzində bir qüsur, hər əzəmətdə bir naqislik vardır.

*Hər hünərdə bir şəhərin tənəsi var,*
*Hər şəkərdə bir zəhmətin zəhəri var (131).*

Şöhrətin astarı tənədir, şirinliyin sonu acılıqdır. "Bu emalatxana eyblə dolu bir evdir" (132). Bəs bu təzadlar və qüsurlar içində insan necə hərəkət etməlidir? Çıxış yolunu şair eybəcərliklər içində gözəllik axtarmaqda görür.

*Gözünü başqasının eybinə yum,*
*Və öz surətinə baxıb onda eyb axtar.*



*Hər bir şeydə həm hünər, həm də eyb var,*
*Eybi görmə ki, hünəri ələ gətirəsən.*
*Ləlekləri qızıl boyalarla bəzənmiş tavusun*
*Ayaqlarına eyib tutmaq yaraşarmı?*
*Bütün bədəni qaraya boyanmış qara qarğanın*
*Gözü ağdır, sən onun gözünə bax (132).*

Nizami dünyanı dəyişmək iddiasından uzaqdır. İnsanın özünü dəyişmək və kamilləşmək fəlsəfəsi ona daha yaxındır.

"İsanın dastanı"nda eybəcərliklər içində gözəlliyi tapıb onu görməkdən söhbət gedir. Üfunətli it leşini hərə bir cür pisləyir. Növbə İsaya çatanda, o deyir: "Onun dişləri dürdən çox-çox ağdır" (133). Səhərdən tənə eləyən adamlar "Çürümüş sədəflərindən dişlərini ağartdılar" (133) . Nizaminin insanlara nəsihəti budur:

*Başqalarının eybini və öz yaxşılığını görmə,*
*Nəzərini aşağı, öz yaxana sal (133).*
*Sənin eyiblərinin paltarını (çox) nazik tikiblər.*
*Ona görə də doqquz pərdəni sənin üstünə salıblar (134).*

11. "Dünyanın vəfasızlığı haqqında". Şair bir daha dünyanın faniliyindən danışır və insanı dünyadan ikiəlli yapışmaqdan çəkindirmək istəyir. Həyatın ötəri olması və insanın ölməzlik istəyi onu çox mürəkkəb və çıxılmaz vəziyyətə salır. Bir halda ki bu mənzil fanidir, ona məftun olmağın mənası nədir?

"Müdrik möbidin hekayəsi"ndə belə nəql edilir ki, Hindistan elində bir möbid cənnət kimi gözəl bir məmləkətə gəlib çıxır. O, bu gözəl diyarda dayanmayıb bu behişt bağından keçib gedir. Bir neçə aydan sonra yolu yenə o diyara düşür. Artıq güldən və bülbüldən əsər-əlamət qalmamışdı. "Elə bil cəhənnəm cənnətin yerinə köçmüşdü" (137). Bu fani dünyadan yaxa qurtarmağın bircə yolu var, o da daim ölümə hazır olmaqdır. İnsan həyata hazır olduğu kimi ölümə də hazır olmalıdır.

12. "Bu torpaq mənzillə vidalaşmaq haqqında". Ey insan, əyyamla vidalaşmağa daim hazır ol. Şələni at ki, yüngül gedəsən. Bu dünya bir tələdir, ondan azad olmağa çalış.

"Bir biri ilə çəkişən iki həkimin dastanı"nda bir evdə yaşayan iki müdrik aqil arasında ev üstündə mübahisə düşür. Aqillər belə şərtləşirlər ki, onlardan hər biri öldürücü zəhər hazırlayıb rəqibinə versin, rəqib isə bu zəhərə qarşı dərman düzəldib özünü ölümdən qorusun. Birincisi zəhər düzəldib rəqibinə verir və "bu şərabdır" deyir, onu nuş elə. Rəqib zəhəri şərab kimi içdi və ölmədi. İkinci rəqib birinciyə bir gül verir və onu ovsunlayır. Rəqib gülü qoxulayıb ölür. Dünya da bu ev kimidir. İnsanlar onun üstündə bir-birinə zəhər içirirlər. Lakin həyat deyilən badəni şərab biləndə, o, insana nəşə bəxş edirsə, onu zəhər biləndə, o, insana qorxu və ölüm gətirir. Həyatın zəhəri şərbət, şərbəti zəhərdir. O səbəbdən də dünyaya bağlanmaq mənasızdır. "Dini Nizamiyə ver, qoy dünya sənin olsun" (143).

13. "Dünyəvi əlaqələrdən əl üzmək haqqında". Dünyəvi dəyərlər insanı dünyaya bağlayan zəncir kimidir. Lakin dünya verdiyini alan dünyadır. Belə olan halda dünya malına alüdə olmaq mənasızdır.

"Sufi və hacının hekayəsi"ndə sufi hacının qızıllarını xərcləyib onu bu zəncirdən azad edir.

*Sən bu diləklərin yolunda təmiz qala bilməzsən,*
*Nizami kimi var-yoxundan tamam əl çəkməsən (149).*

14. "Qəflətin məzəmməti haqqında". Qəflət insanı ələfyeyən səviyyəsinə endirir. Ondan yaxa qurtarmağın yolu əqldir. "Əql adı can olan çeşmədir" (150). Əql ruha xidmət edir. Qəflətə varanda əql yox olur. "Nur azaldıqca kölgə çoxalar" (151). Əql azalanda isə bəd əməllər artar.

"Zülmkar padşah və düzdanışan kişinin hekayəsi". Qəflət yuxusunda uyuyan, əqlin ziyasından məhrum olan padşah zalımlıq edir. Düzdanışan kişi haqqı padşaha söyləyir. Əqlin ziyası şahı qəflətdən oyadır. Şah düşünməyə başlayır və zülmkarlıqdan əl çəkir.

15. "Paxılların məzəmməti haqqında". Paxıllıq da qəflətin bir növüdür. Əqlin ziyası olmayan yerdə paxıllıq kölkəsi dünyanı zülmətə qərq edir. Paxıllıq insanı özgələrə yad edib özünə məftunluq yaradır.

(Davamı səhifə 19-da)

# NİZAMİNİN İNSAN FƏLSƏFƏSİNİN ƏSASLARI

## (“Sirlər xəzinəsi” haqqında)

*(Əvvəli səhifə 17-də)*

“Gənclərin qocalar içində havadarları az olur” (155).

“Cavan şahzadə və onun qoca düşmənləri haqqında hekayət”. Qocalar cavan şahın əleyhinə çıxırlar. Şaha yuxuda bir qoca deyir: “Köhnə bürcü uçur, köhnə budağı sındır”. Burada qocalar köhnəlik timsalıdırlar. İki-üç nəfəri aradan götürdükdən sonra məmləkət cavan şah üçün təzələnir.

16. “Çevik olmaq haqqında”. Həyatın keşməkeşlərindən baş çıxarmaq üçün onu dərindən anlamaq və fərasət göstərmək lazımdır.

“Yaralanmış uşağın hekayəsi”ndə ağıllı düşmənin nadan dostdan üstün olduğu nümayiş etdirilir.

17. “Pərəstiş və təcrid haqqında”. Dünya malını sevmək və ona nəsib olmaq heç də rahatlıq və xoşbəxtlik demək deyil. Var-dövlətin də öz qayğıları var. Kosa bir-birinin saqqalını yolan iki kişinin davasını görüb şükür edir ki, onun saqqalı yoxdur. Dünya nemətlərindən imtina etməyin öz üstünlükləri var.

“Mürşid və müridin hekayəsi”. Pir min nəfər müridi ilə yol gedirmiş. Birdən güclü külək qalxır, tufan qopur. Hamı tələsik qaçıb canını qurtarır. Bir nəfər isə qocanın yanında qalır. Pir soruşanda ki, sən niyə qaldın, o belə cavab verir:

***Mən əvvəlinci nəfəs (dəfə) bura yel ilə gəlməmişdim***
***Ki, həmən yel ilə də geri qayıdım (167).***
***Toz bir yerdə qərar tuta bilməz. Dağ isə həmişə yerindədir.***

18. “İkiüzlüləri məzəmmət haqqında”.

***Dost sənin zəhərinə nə deyər? - Şəkər!***
***Sənin eybini dost nə sanar? - Hünər! (169).***

“Cəmşid və onun şəxsi muhafizinin hekayəti”. Cəmşid öz sirlərini şəxsi muhafizinə danışarmış. O isə şahdan uzaqlaşmaq istəyir. Şahın sirri cavanı incidir. Qoca bir qarı ona belə bir məsləhət verir.

***Bu dinara bənzər yanaqlarının sarı olması***
***Qan dəryasına qərq olub qırmızı olmağından yaxşıdır (172).***

Gizli qalan sirrin öz hikməti var.

***Eşq pərdə arxasında olarkən kəramət dərəcəsinə çatır.***
***Oradan eşiyə çıxarsa, xarabata (meyxanəyə) yollanır (173).***

19. “Axirəti qarşılamaq haqqında”. Bu dünya “qaranlıq səhradır”, “kükürd cəhənnəmidir”. Buradan tez köçmək lazımdır. Dünyaya vurulub təbiətə bağlanmaqdansa, ondan əl çəkib şəriətə qovuşmaq yaxşıdır.

***Şəriət nəsimdir, onu canına tapşır,***
***Təbiət (cismani aləm) bir tozdur, onu cahana tapşır (176).***
***Mən Adəm oğluyam (insanam) , mələklərdən üstünəm,***
***Fələyin o biri tərəfindən dəm vururam (178).***

İnsan hikmətlər xəzinəsinin üstündə durub, ona görə də daim şahlıq və ucalıq iddiasındadır.

“Harun ər-Rəşid və dəlləyin hekayəti”ndə xəzinə üstündə duran dəllək xəlifə ilə qohum olmaq istədiyini gizlətmir. Xəzinədən məhrum olan kimi iddialarından da əl çəkir. Adəm övladının da iddiaları çoxdur. Yaxşı olardı ki, bu iddialar dünya malına yox, mənəvi dəyərlərə söykənsin.

***Nizaminin tilsimlər sındıran xəzinəsi***
***Onun saf sinəsi və işıqlı ürəyidir.***

20. “Müasirlərin sırtıqlığı haqqında”. Bu məqalə Nizami müasirləri, yəni Adəmin törəmələri haqqındadır. Adəmdən Nizamiyəqədərki dünyanın hikmətləri “Sirlər xəzinəsi”nin əsas mövzusunu təşkil edir. Birinci məqalə Adəmin yaranması haqqında idi. Sonuncu məqalə müasirlər, yəni Adəmin törəmələri haqqındanır. “Sirlər xəzinəsi”ndə Adəmdən başlamış Nizami dövrünə qədərki həyat yolunun hikmətləri öz bədii-fəlsəfi əksini tapmışdır. Nizaminin birinci böyük poeması insan və dünya haqqında düşüncələr xəzinəsidir, insanın məziyyətləri və qüsurları haqqında hikmətlər toplusudur. Allahın xəlq etdiyi birinci insandan başlamış müasirlərə qədər bütün bəşəriyyətin həyat yolu qüsurlarla mübarizə və kamilləşmə yoludur. Nizami dövründə də bu mübarizə davam edir: hünərsizlər hünərliləri boğur. “Riyazət yükünü tamaşa xatirinə daşıyanlar, fikri sövda xatirinə fikirləşənlər” daha da çoxalmışlar.

“Bülbül və şahın hekayəsi”ndə deyildiyi kimi, həmişə susan şahinin yeri Səncərin əlləri, yeməyi isə kəklik döşüdürsə, “boğazından inci gövhər çıxaran” bülbülün evi tikanlar başı, yemi isə qurdçuğazlardır. Belə bir dünyada şeir və sənətin, şair və sənətkarın da qədri uca tutula bilməz. Ona görə də Nizami öz vəziyyətindən gileylənərək yazır:

***Gözəl şeirlərinin avazını göylərə ucaltma,***
***Yoxsa Nizami kimi şəhərdə dustaq olarsan (184).***

Bir sonluq kimi şair ilk poemasına öz münasibətini bildirir və bir növ gələcək vəzifələrindən danışır.

***Əritdiyim bu qədər almazdan***
***Şah üçün (yalnız) balaca bir bıçaq düzəldə bildim.***
***Qılınc üçün dəmirim hələ daşlardadır,***
***Dəmirçilik kürəm isə dardır (185).***

“Bıçaq” dedikdə şair “Sirlər xəzinəsi”ni, “qılınc” dedikdə isə sonra yazacağı poemaları nəzərdə tutur. Darlığından şikayət etdiyi dəmirçilik kürəsi isə ilk opemanın janr və forma xüsusiyyətlərinin geniş ümumiləşdirmələrə və dərin bədii təhlilə imkan vermədiyinə işarədir. Söz yox ki, şair öz sonrakı yaradıcılığında “darısqallıqdan” yaxa qurtarmağa çalışacaq və geniş epik təsvirlər meydana çıxacaq.

***Dövlət (səadət) əgər mənə yar olsa idi,***
***Ömrümü heç belə (xirda) şeyə sərf etməzdim (185).***

Uçuşa hazırlaşan cavan qartal kimi Nizami özündə sonsuz həvəs və qüvvə hiss edir, mənə göylərini fəth edə biləcəyinə inanır. O, sanki zəmanə və dünyayla çəngə hazırlaşır, onların yaratdığı hikmətlərə layiq əsər yazmağa qadir olduğunu hiss edir. Dünyayla söhbətdə və bəhsdə hələ şair borclu qalır. Zəmanə mənə deyir:

***“Sən ki zəmin (yer) deyilsən, bir hərəkətə gəl.***
***Yerə mıxlanmış (xəstələr kimi) nə qədər oturacaqsan, hərəkətə gəl (185).***

Zəmanə şairə bir də bunu deyir:

***Mənim (yaratdığım) bakirə mənaların misli yoxdur,***
***Onların boyu ölçüsündə libas yoxdur (185).***
***Onların donu (nimtəsi) başdan dizə qədərdir,***
***Ona görə də onlar dizi üstə oturmuşlar.***
***Onun (mənaların) boyuna münasib yaraşıqlı don tikmək lazımdır***
***Ki, ədəblə ayağa dura bilsinlər (186) .***

Şairin bütün sonrakı yaradıcılığı məhz bu məqsədə xidmət edəcək - dünya hikmətlərinin boyuna layiq nimtə tikmək, insanlığın və bəşəriyyətin həyat fəlsəfəsini əks etdirə bilən epik əsərlər yaratmaq. “Sirlər xəzinəsi”ndə insan fəlsəfəsinin əsasını qoyan şairin öz sonrakı poemalarında bu fəlsəfənin möhtəşəm bədii saraylarını ucaldacağına şübhə qalmır.